

# El harayına can deyən şəhid

## ELCAN

### (Dördüncü yazı)

***(Əvvəli ötən saylarımızda)***

**Məktəb illəri və yeniyetməliyi**

Digər uşaqlar kimi, Elcan da 6 yaşında, yəni 2007-ci ildə "Abbas Səhhət"dəki 19 nömrəli məktəbdə ibtidai təhsilə başlamışdı.

İkinci sinifdə oxuyarkən bir qız sevirdi. Heyif ki, adını hələ bilmirəm. Uşaqlıq sevgisi daha maraqlı və təsirli olur. Həmin illərdən xatirə qalan bir hadisəni sizlərlə bölüşmək yerinə düşərdi.

Şəhidin Təranə bibisinin dediyinə görə, bir gün onlara qonaq gələn Elcan həyətdəki qızılgüldən iki-üç dənəsini qoparır. Təranə bibisi min bir zəhmətlə böyütdüyü güllərdən üçünün səliqəsiz şəkildə qoparılmasına bir az əsəbiləşir. Elcanı yanına çağırır. Elcan bibisinin səs tonundan məsələnin nə yerdə olduğunu duyub biixtiyar deyir:

- Bibi, Allah haqqı, təzəsini alıb yerinə qoyacam.

Bibisi onun cavabına istər-istəməz gülür və hirsi bir anın içində yox olur. Yeddi-səkkiz yaşlı qardaşoğlunun düşdüyü vəziyyəti yumşaltmaq üçün zarafatyana dillənir:

- Ay bala, de görüm, bu gülləri neynirsən? Yoxsa sevdiyin qız-zad var, xəbərimiz yoxdur?

Elcan başını aşağı salıb heç nə demir. Bibisi onu yanına çağırıb başını sığallayır:

- Üzümə bax görüm, - deyib onun gözlərinə diqqətlə baxır. Qızarmış yanaqları onu ələ verir. - Həə, belə de... Kimdir, o qız?

Elcan qızın adını deyib əlavə edir:

- Sinif yoldaşımdır. Partada birlikdə otururuq.

- Həə, onda gülü qoparmağa icazə verirəm.

Həmin gündən Elcan arabir bibisigilə gələndə qızılgüldən nə az, nə çox üç dənəsini dərib aparardı. Bibisi indiyə qədər həmin qızın adını, kimliyini bilmir. Lakin Elcanın vəfatından sonra baş vermiş bir səhnə onu illər öncəyə apardı. Belə ki, Təranə bibi deyir:

"Elcanı dəfn eləyəndən bir həftə sonra qəbrini ziyarətə getmişdim. Qəbrin qarşısında əllərimi açıb dua edirdim. Birdən baş daşına söykədilmiş üç qızılgül diqqətimi çəkdi. Bir-birinə bağlanmış üç qızılgül. Bu məni Elcanın uşaqlıq illərinə apardı. Bilmirəm, düz fikirləşirəm, ya yox, amma məncə, həmin gülləri adını bilmədiyim o qız bura qoymuşdu...".

Elcan Muradovla bağlı xatirələrini yad etmək üçün mərhumun müəllimləri ilə də əlaqə saxlamalı oldum. Onların kədərli halda, amma qürur və iftixarla dedikləri bibioğlu kimi məni də qürurlandırdı. Ən geniş söhbət etdiyim Könül müəlliməsi ilə maraqlı söhbətimiz oldu. Onunla söhbətimizi olduğu kimi sizə əziz çatdırmaq istəyirəm:

- Elcan barədə o qədər danışmaq olar ki... Sözə qulaq asan bir şagird olub. Düzdür, əlaçı deyildi, lakin öz tərbiyəsi, mərifət-qanacağı ilə tək mənim yox, bütün müəllimlərin hörmətini qazanmışdı. Yuxarı siniflərdə oxuyanda bəzi yaramaz şagirdlərə nümunə olurdu. Müəllim adına həmişə hörmət qoyurdu. Davranışları ilə, dürüstlüyü ilə özünü elə sevdirmişdi ki, onu balam kimi sevirdim. Şəhid olmasını eşidəndə inana bilmədim, çox ağladım.

- Müəllimə, Elcanla bağlı yadınızda qalan bir xatirə varmı?

- Əlbəttə. Özünü həmişə sinifdəki qızların böyük qardaşı kimi aparırdı. Başqa sinifdə oxuyanlar nəbadə həmin qızlara nəsə artıq söz deyəydi. Elə bil, sinifdəki qızların doğma qardaşı idi. Onlar da həmişə Elcana hörmət qoyurdular. Siniflərində belə birisinin oxuması onlarda özünəinam hissi formalaşdırmışdı... Yadıma düşmüşkən, qoy bunu da deyim.

Bunu deyən Könül müəlliməyə bir qədər tutuldu. Qəhərləndi. Sonra özünü ələ alıb sözünə davam etdi:

- Bir dəfə birinci dərsə gecikmişdi. Dünənki kimi gözlərim önündədir. Müəllimin xasiyyəti sərt olduğundan Elcan ondan çəkinirdi. Sakitcə dərs dediyim sinifə gəldi: "Müəllimə, olar zəngə qədər burda oturum?" - dedi. Yəqin, direktorun da onu görməsini istəmirdi. Icazə verdim, keçib oturdu. Zəng vurulanda məndən xahiş etdi ki, həmin müəllimə yaxınlaşım və onun xahişini edim. Mən gülümsəyib razılaşdım.

- Yaxşı ən çox hansı əməli diqqətinizi çəkib?

- Diqqətimi ən çox çəkən çox xeyirxah olması idi. Elə şagird olurdu ki, ailəsi bir az imkansız olduğundan dəftər almaqda belə çətinlik çəkirdi, iki-üç dərsi bir dəftərə yazırdı. Neçə dəfə görmüşəm, Elcanı dəftər, qələm gətirib həmin uşaqlara verib. Bildiyim qədər, onun özü də imkanlı ailədən deyildi. Bununla belə, onun bu ürəyiaçıqlığı, səxavəti, fədakarlığı bir müəllimə kimi mənə xoş təsir edirdi. Bir sözlə, Elcan qızıl kimi oğlan idi!

- Təşəkkür edirəm ki, bildiklərinizi bölüşdünüz. Bəs, əlavə nəsə demək istəyirsiniz?

- Oğlum, bir şey də demək istəyirəm.

- Buyurun.

- Biz Vətənimiz uğrunda həyatını fəda edən şəhidlərə həmişə borcluyuq. Məktəbdəki müəllim heyəti də təklif edib ki, məktəbimizə şəhid Elcan Muradovun adı verilsin. Bu, həm şəhidin adını əbədiləşdirəcək, həm də gənclərdə vətənpərvərlik ruhunu daha da artıracaq. Direktorumuz sağ olsun, lazımi prosedurları başladıb.

Mən Könül müəllimənin təklifinə çox sevindim. Belə bir qənaətə gəldikləri üçün ona və onun timsalında bütün müəllimlərə təşəkkür etdim. Danışığı bitirib sağollaşmaq istəyirdim. Könül müəllimə son olaraq dedi:

- Vallah, Gəncədə o qədər küçə var ki, tanımadığımız şəxslərin adınadır. Deyirəm, kaş həmin küçələrə onun-bunun adını qoymaqdansa, elə şəhidlərimizin adını verəydilər...

Kitabın bu yerində Elcanın uşaqlığı ilə bağlı xatirəmi də sizinlə bölüşmək istərdim. Elcanın doqquz yaşı olanda, yəni 2010-cu ilin yayında Tərtər rayonu istiqamətində düşmənlə təmas xəttində bir hadisə baş verdi. Bir gənc hərbiçimiz özü ilə bir neçə silah-sursat götürüb düşməndən qisas almağa yollandı. Ertəsi gün bütün Azərbaycan, hətta xarici dövlətlər belə, həmin hərbçi barəsində danışmağa başladı. Bu gənc Vətənin qəhrəman oğlu gizir Mübariz İbrahimov idi. Mübariz geriyə qayıdışı olmayan bir yola getdi. Düşmənin nəfəsini kəsdi, öz qisasını aldı və arzusunda olduğu şəhidlik pilləsinə ucaldı.

Həmin hadisə xalqımızın hər bir fərdinə, o cümlədən hələ məktəbli olan Elcan Muradova çox təsir etmişdi.

Mən hərbi liseyi yenicə bitirmişdim. Ali Hərbi Məktəbə qəbul olunmuşdum. Hələ dərslər başlamadığından, evdə tətilin bitməsini gözləyirdim. Bir gün Elcan bizə gəldi. Televiziyada ard-arda göstərilən kadrları, telefonlarda paylaşılan videoçarxları o da görmüşdü. Mən evdə tək idim. Üzbəüz əyləşib dedi:

- Qaqa, mən də hərbi məktəbdə oxumaq istəyirəm.

Təbii ki, sevindim. Çox qəribədir, mən də onunla eyni yaşlarda olanda buna qərar vermişdim. Dayıoğlumun bu istəyini təqdirəlayiq qarşıladım:

- Lap gözəl. Amma hələlik sən məktəbdə oxumalısan. Yaxşı oxu ki, səkkizinci sinifdə imtahan verib qəbul oluna biləsən.

- Baş üstə...

Elcanın hərbi liseyə qəbul olacağına inanırdım. Təəssüf ki, sonrakı illərdə baş verən bəzi hadisələr, daha doğrusu bəzi problemlər buna imkan vermədi. Məktəbdə oxumaqdan əlavə, orda-burda xırda-para işlə məşğul olub evinə çörək aparırdı. Ailəsinin maddi cəhətdən çətinlik çəkməsi onu çox sıxırdı.

2006-cı ildə ailənin ikinci övladı Rəsail dünyaya gəldi. Lap kiçik yaşlarından hamı ona "Bobu" deməyə başladı. 2011-ci ildə isə Elcanın ikinci qardaşı Eltac işıqlı dünyaya göz açdı. Dünənki kimi yadımdadır, Eltacın qulağına azan və iqamə demək mənə nəsib olmuşdu.

Düzdür, Elcan kasıb ailədə böyümüşdü. Amma bu onun xoşbəxt olmasına mane ola bilməmişdi. Çünki Elcan xoşbəxt yaşamağın yolunu yaxşı bilirdi.

Necə xoşbəxt yaşamalı?

Hər bir insan xoşbəxt yaşamaq istəyir. İstər varlı, istər kasıb, istər sağlam, istər xəstə, hansı hazırki durumundan asılı olmayaraq hər bir insan xoşbəxt yaşamaq arzusundadır.

Bəziləri Elcanın 19 yaşında şəhid olduğunu eşidib təəssüflənir və "Yazıq uşaq, gün görmədən öldü", - deyirlər. Təbii ki, təəssüflənmək normaldır, amma bir şeyi də unutmaq olmaz ki, o indi ən xoşbəxt insanlarla birlikdədir. Axı, Həzrət Adəmdən günümüzədək davam edən səadət karvanına qoşulmaq hər insana qismət olmur.

Əsl xoşbəxtlik həm bu dünyada, həm də axirətdə olduqda reallaşır. Mövzu ilə əlaqədar olduğu üçün bir məsələni qeyd etmədən keçmək doğru olmaz. O da varlıq aləmindəki qanunlarla bağlıdır. Belə ki, kainatda fiziki və mənəvi qanunlar hökm sürür. Fiziki qanunlara Yerin cəzbetmə qanununu, suyun buxarlanma qanununu, mayenin hökmən üç aqreqat halından birində olmasının zəruriliyini və bu kimi digər onlarla qanunu göstərmək olar. Bu qanunlar empirik yolla, təcrübə edilərək kəşf olunur və onların əsasında bizlərin maddi yaşayışımız inkişaf etdirilir. Bu gün kondisioner, telefon kimi elektronik ləvazimatlarla rahat yaşayırıqsa, bunu məhz təbiətdə qoyulmuş fiziki qanunlara borcluyuq. Çünki hər bir şey müəyyən qanunauyğunluq əsasında ərsəyə gəlir. Amma rahat yaşamaq heç də xoşbəxt yaşamaq deyil. Axı, xoşbəxtlik daxilən duyulan bir hissdir.

Varlıq aləmində fiziki qanunlar olduğu kimi, mənəvi qanunlar da vardır. Bu qanunlar isə təcrübə yolu ilə kəşf və inkişaf etmir. Hər bir insanın daxili dünyası məhz o qanunlar əsasında tənzimlənir. Adi elektronik əşyanın parametrləri pozulsa xarab olduğu kimi, insanın da yaradılış parametrləri pozulsa, mənəvi böhran yaranır. İnsan daxilən məhv olur. Məsələn, hər bir insan başqasının zülmə məruz qaldığını, hansısa günahsız qızcığaza təcavüz olunduğunu görsə daxilən buna etiraz edir və yaxud biz köməyə möhtac birinə əl tutanda, haqsızlığa məruz qalanı müdafiə edəndə daxilən rahatlıq qazanırıq. Belə şeylər nə valideynlər tərəfindən öyrədilir, nə də məktəbdə tədris edilir. Uca Yaradan hər bir insanın fitrətində bu qanunları yerləşdirir. Əgər biz o qanunlara əməl edəriksə həqiqi xoşbəxtliyin tamını duyarıq. İstər varlı olaq, istər kasıb, heç fərq etməz. O qədər varlı insanlar var ki, zahirən xoşbəxt görünsələr də intihara əl atırlar. Həmçinin, o qədər kasıb adamlar var ki, həyatdan bezərək intihar edirlər. Xoşbəxtlik maddi durumdan yox, daxili vəziyyətdən asılıdır. Bu, dəyişməz sabit qanundur.

Elcan məhz belə bir xoşbəxtlik yaşayırdı. Məktəbdə oxuyanda elə vaxt olurdu ki, valideynləri ona məktəbli forması ala bilmirdi, köhnə paltarları ilə dərsə gedirdi, amma o, xoşbəxt idi. Çünki mənəviyyatlı birisi olmaqla bərabər, onu sevənlərə xoşbəxtlik aşılayırdı.

* * *

Elcanın dəfnindən qırx gün ötmüşdü. Məhbəsdən çıxma imkanım olmadığından, başsağlığı vermək üçün zəng etməli oldum. Dəstəyi İntiqam dayım götürdü. Hansı ki, Elcanın əmisi düşür. Telefonu Eldəniz dayıma verməldən öncə mərhum şəhid barədə onun da fikrini, xatirələrini soruşdum:

- Dayı, sən Elcanın əmisi olmusan. Gözünün qabağında böyüyüb. O sənin xatirələrində necə qalıb?

- Elcan mənim sağ əlim idi. Arada əsəbi olurdum, neçə dəfə, istəmədən də olsa, hirsimi yazığın üstünə tökmüşəm. Heç vaxt cavab qaytarmırdı. Elə bu hərəkəti ilə məni əməlli-başlı tənbeh edirdi. Güləruz, mehriban idi.

- Başqa?

- Başqa?.. Hamımızın ad gününü yaddaşında saxlayırdı. Elə vaxt olurdu ki, doğma qardaş-bacılarım unutsa belə, o hökmən təbrik edərdi. İmkanı olduqca hədiyyə alardı... Bəzən xətrinə dəysəm də, o, "əmi, sən mənim böyüyümsən, səndən incimirəm", - deyirdi.

*(Ardı var)*

***Elvin ARİFOĞLU***